UOT 75

*Vəfa Orucova*
*Azərbaycan Dövlət Rəssamlıq*
*Akademiyasının dissertantı*
*AZ1029, Bakı, Heydər Əliyev pr.58*
*E-mail*: vafa.orucova.77@mail.ru

# XALQ RƏSSAMI TOFİQ AĞABABAYEVİN AVTOPORTRETLƏRİ

**Xülasə**: Məqalədə Azərbaycanın görkəmli tişə ustası, Xalq rəssamı Tofiq Ağababayevin yaradıcılığı araşdırılır. Təhlilə rəssamın avtoportretləri cəlb olunub. Göstərilir ki, rəssam maraqlı kompozisiya quruluşuna malik olan bu əsərləri duyğulandırıcı rəng əlvanlığı ilə diqqəti çəkir.
**Açar sözlər:** rəngkarlıq, portret, avtoportret, kompozisiya, kolorit, dəzgah.

Təsvir edilən obrazın kətan və ya kağız üzərində real görüntüsünə nail olmaq portret janrının qarşısında qoyulan əsas tələbdir. Çox qədimlərdən mövcud olan portret janrı Azərbaycan təsviri sənətində də geniş yayılmışdı. Orta əsrlər miniatürlərimizdə, eləcə də XIX-XXI əsrlərdə yaradılmış boyakarlıq nümunələri arasında gözəl, diqqəti cəlb edən və yüksək bədii dəyərə malik olan portretlərə rast gəlinir. 1960-1970-ci illərdə portret janrı sahəsində inkişafda olan demokratikləşmə müşahidə olunurdu. Rəssamları cəmiyyətimizdə, heç bir istisnalara yol verilmədən, fərdilik maraqlandırırdı. Müşahidə və düşüncə, bir qayda olaraq, fəal, hərəkətdə olan, gərgin, bəzən isə dramatik səciyyə daşıyır. Düşüncəyə meyliliyin göstərilməsi ənənəsi müvəqqəti psixoloji vəziyyət kimi deyil, həmçinin müasirimizin sabit fərdilik cizgiləri kimi nəzərə çarpır. Müxtəlif vaxtlarda və müxtəlif şəraitlərdə portret ustalarının yaradıcılığı fərqli məqsədlərə istiqamətlənirdi. Belə bir vəziyyət portret haqqında çoxdan yaranmış mübahisələrin mənbəyi kimi çıxış edir. Onların fərqinə varmadan qeyd edək ki, bu gün portret başqa janrda yaradılan əsərlərə nisbətən müasirlərin fərdi aləminə daxil olmaqda, insan psixikasının və idrakının xüsusiyyətlərini daha həssaslıqla və tam şəkildə aşkara çıxarmaqda daha çox yardımçılıq edən janr kimi təşəkkül tapır.

Tofiq Ağababayev daxili aləmini üzə vuran, daxili yaşantılarını və yaxud xarakterik mühitini tərənnüm edən bir çox avtoportertlər yaratmışdır. Həmin əsərlər öz ekspressivliyi, daxili dinamikası ilə diqqəti cəlb edir. Bu portretlər orijinal kompozisiya quruluşuna malikdir. Avtoportretlərdə rəssam özünü istənilən şəraitdə, vəziyyətdə əks etdirə bilər. Burada poza, geyim, məkan şəraiti tamamilə sərbəst olaraq, rəssamın özünü ifadəsi kimi büruzə verilir. Müxtəlif xarici və rus rəssamların avtoportertlərinə diqqət yetirsək əsasən burada rəssamların özlərinin fərdi psixoloji durumlarını ifadə edən fon və pozalarda təsvirlərini görürük.

Məsələn, Sezannın 1875-ci ildə yaratdığı “Avtoportre”ində tamaşaçısına baxan ifadəli duruşu, seyrəkləşmiş açıq alnı, ayğılı obrazı və yaxud gorkəmli flamand rəssamı Rembrandtın 1652-ci ildəyaratmış olduğu avtoportertdə oturmuş halda kübar geyimli ciddi siması, daha bir misal olaraq rus rəssamlarından Karl Brüllovun 1848-ci ilə aid avtoportertində arxaya söykənmiş yorğun görkəmi tamaşaçını özünə cəlb edərək onu düşünməyə məcbur edir. [3. S. 2]

Tofiq Ağababayevin avtoportertindəki dərin məna, məzmun dəyəri, ciddiliklə yanaşı, yüksək insani keyfiyyətlərin daşıyıcısı olan mənəvi aləmin tərənnümü diqqət çəkir. Burada rəssamın hakim olduğu mənəvi aləminin kiçik bir anının xüsusi effektlərlə təsvir olunması ilə bütöv daxili dünyanın

tərənümü ifadə olunur. Tamaşaçısına baxan mənalı, dərin baxışlar əsərdəki ekspressivliyi yaradan və gücləndirən amillərdir. Əsərin kolorit həllində tünd yaşıl, qəhvəyi çalarlar üstünlük təşkil edir, avtoportret mahiranə rəng yaxıları ilə işlənilib.

Təqdim edilmiş avtoportert Van Reyn Rembrandtın 1655-ci ildə yaratdığı avtoporterti ilə müqayisə etmək olar. Hər iki portertdə rəssamın real görünüşü xüsusi rəng effektləri ilə tamaşaçısına baxarkən düşüncəli formada əks etdirilmişdir. Xüsusi işıq və kölgə oyunlarının məharətli ifadəsi əsərin məna dəyərini qabardılmış şəkildə tədim edir.

Ümumiyyətlə, avtoportretlər silsiləsində rəssam özünün sakit, təvazökar xarakterik xüsusiyyətlərini, heç bir elementin istirak etmədiyi tək obrazlı səhnədə harmonik və duyğulu rəng çalarları ilə ifadə etmişdir.

Birini avtoportretdən fərqlim olaraq daha parlaq və işıqlı çalarla ifadə edilmiş ikinci tabloda rəssam sanki özünün daha çox optimist əhval-ruhiyyəsini tərənnüm etməyə cəhd etmişdir. Bunu rəng həlliilə daha əsaslı şəkildə reallaşdıran rəssam sarı, yaşıl kimi rənglərin daha isti çalarlarına üstünlük vermişdir. Özünün ənənci ağ kepkası və rəngli geyim tərzi ilə sənətsevərlərin rəğbətini qazanan sənətkarın xoş aurası diqqəti çəkir.

Yaşıl və sarı rəngin dərin yaxıları ilə arxa fonu xüsusi palitrada canlandıran rəssam özünün sənət dünyasına işarə etmiş, xüsusi rəssam mühitini deyil, onun abu-havasını məharətlə yaratmağa nail olmuşdur.

Eynəkli, bəyaz saqqalı, ağ kepkalı real görünüşün xoş rəng tonları arasında tə vazökarlıqla tərənnümü əslində rəssamın insanlara, ətrafa olan müsbət, xoş və yüksək mədəni münasibətinin göstəricisidir. Yaşıl, sarı, qəhvəyi kimi yaxın tonların arasında köynəyin yaxalığında verilmiş şux qırmız rəngin təzadlı münasibəti əsərdəki xoş auraya xüsusi təsir qataraq onun tamaşaçı tərəfindən daha rəğbətlə qarşılanmasını imkan yaradır.

Eyni təsir gücünü, yəni daxili yaradıcı dünyanın, xoş auranın təqdim edildiyi avtoportret fərqli rəng həllinə malik olsa da burada da kənar elementlərin iştirak etmədiyi, sadəcə rssamın portertininolduğu mükəmməl rəng palitrası ilə həll edilərək özünün yeksək təsir gücünü sərgiləmişdir. Əlav edilmiş yeganə element rəssamın əlində tutduğu siqaretdir ki, bu da onun axtarışda olduğu, yeni əsərlər üzərində işləməyə hazırlaşdığı anı göstərir.

Tablo digərləri ilə müqayisədə daha kəskin rəng təzadına malikdir və burada tonal ləkələrdən, ştrixlərdən daha çox istifadə edilmişdir. Əsərin sağ küncü daha kölgəli, sağ tərəf isə daha işıqlandırılaraq tablodakı psixoloji təsir gücünü daha da qabardır. Əsasən tünd göy rəngin öz daxilində işıqlandırılaraq, digər rəng tonlarının bir qədər donuq verilməsi ilə təzadlı ifadə əhəlli yaradan rəssam fərqli, olduqca yeksək hissiyyatlı portretin yaranmasına səbəb olmuşdur. Qırmızı, qara, tünd qəhvəyi kimi rənglərin arasında verilmiş göy rəng deyil, işıq kimi iştirak edir. Bu cur ifadə tərzi ilə ekspressivliyin yaranması, təsir gücünün və psixoloji gücün artması yükək sənətarlığın nümayişidir. Tam önə baxan obrazın dərin düşüncələr aləmi heç də onun gərginliyini, aqressiyasını deyil, tam əksinə böyük səbirliliyini, hadisələrə müdrük yanaşmasını göstərir. Bunu həm də rəssamın öz xarakterik xüsusiyyətləri ilə bağlılığı da izah edir.

Belə təsvir formasına müqayisə olaraq məşhur rus rəssamı Qrabar İqor Emmanuiloviçin hazırda Sankt-Peterburqun Dövlət Muzeyində saxlanılan 1942-ci yaratdığı avtoportretini göstərmək olar. Burada da tablonun sağ tərəfi daha da işıqlandırılaraq, sol hissəyə bir qədər kölgə salınmış, bununla da əsərin psixoloji mahiyyəti özünün təsdiqini tapmışdır. Eynilə rəssam-pedaqoq tam mərkəzə baxan nəzərələri ilə səbri, müdrikliyi, təvazökarlığı və eyni zamanda yüksək alicənəbalığı özündə nümayiş etdirir ki, bu da müəllifin öz xarakter xüsusiyyətlərindən doğur. [1. S. 6]

Eyni təsvir formasını Tofiq Ağababayevin qeyd edilən avtoportertində də görmək mümkündür. Şux, canlı yaxılar, rəng ləkələri, bir rəngin digər rəngin üzərinə təzadlı vurulması avtoportertə yüksək *ekspressiya* hissi verir.

Arxa fonda istifadə edilmiş tünd, qan qırmızı tonun rəssamın pencəyində də istifadə edilməsi, təzadlı münasibətlərlə əsərdə aqqressiyanını yaranmasına mane olmuş, müəllifin məqsədindən irəli gələrək onun sakit, müdrik daxili mühitinin daha məqsədli tərənnümünə səbəb olmuşdur. Mavi boqazlı köynək, əlind tutduğu siqaret də həmin məqsəddən çıxış edir. Tünd rənglərin arasında işıqlandırılmış simanın insanlara, tamaşaçısına baxan mənalı nurlu siması dərin həssaslığı önə çəkir.

Müəllifin digər avtoportreti də maraqlı kompozisiya quruluşuna malikdir. Bir qayda olaraq yüksək rəng həlli verilmiş, tək obrazın iştirak etdiy bu əsərlərədə tünd çalarlar, təzadlı rəng keçidi üstünlıük təşkil edir. Eləcə də xüsusi effektlərlə işıqlandırılmış sifət cizgiləri daha tünd çalarların əhatəsində özünün yüksək psixoloji təsir gücünü təqdim edir.

Belə ki, tünd yaşıl tonun müxtəlif çalarlarında həll edilmiş arxa fonun qalın, sərt rəng yaxıları, açıq və tüd çalarların qarşılıqlı münasibəti mərkəzdə iri planda verilmiş avtoportretin daha qabarıq və mənalı görünüşünü önə çəkir. Burada digər avtopotertlərə nisbətən rəssamın daha qayğılı siması diqqəti çəkir. Sanki tabloda bir qədər, çox az da olsa seçiləcək narahatlıq onu digərlərindən ayırır. Bunun səbəbbi yeni əsərin daha dərin qatlara dayanan psixoloji təsvir manerası üzərində işləmək cəhdi ola bilər. Eynəyin altından baxan nəzərlərin bir qədər sərtlik alası tablodakı ciddiyyəti xüsusilə artırmışdır. Məqsədə tamnail olmaq üçün istedadlı rəssam kepkanın və pencəyin rəng həllini də daha tünd, daha dəqiq desək qara rəngdə vermişdir. Ağ köynək və göy qalstukun ifadəsi əsrdəki ciddiyyəti, tələbkarlığı daha da sərtləşdirir. Burada rəssam manerasından daha çox pedaqoq peşəsinin üzərinə vurğulayan rəssam fərqli tərəfdən yanaşaraq yaradıcı sərbəstli və pedaqoq tələbkarlığı arasında müqayisəni göstərmiş, həyatda hər bir şeyin özünəməxsus yerini müəyyənləşdirir.

Rəssamın ciddilik ifadı edən bu tablosunda onun digərlərində olduğu kimi mərkəzə, tamaşaçısına baxan nəzərləri yana dikilmiş, sanki bizə görünməyən hər hansısa digər obyektə baxdığını diktə edirmiş kimi tərənnüm olunmuşdur.
Bütün portertlərdə dəyiçməyən əsas nüans isə müdrikliyin, yüksək alicənablığın tərənnümüdür ki, bu da bir mənalı olaraq şəxsi xarakterliliklə əlaqələndirək məqsədəuyğundur.

Portret janrının ustalarından biri olan, Tofiq Ağababayevin dəfələrlə fərdi sərgisi keçirilmişdir. Milli rəssamlıq sənətimizin inkişafında xüsusi xidmətləri olan bu istedadlı sənətkarın əsərləri indi nəinki Azərbaycanın, eləcədə dünyanın məşhur muzeylərində qorunub saxlanılır.

Xalq rəssamı Tofiq Ağababyevin portertləri ilk növbədə duyğulandırıcı rəng əlvanlığı ilə diqqəti çəkir. Ruhən əsərlərində rəngin plastik imkanlarını sərgiləməyə hər bir zaman nail olan rəssam obrazların tərənnümündə onların daxili aləminin açılmasında psixoloji təsir gücünə malik, xarakterliliyin nümayişi üçün dərin bələdçilik, mövzud mühit haqqında müşahidəçilik göstərərək bu əsərlərin təsirli tərənnümünə nail olmuşdur.

**Açar sözlər: r**əngkarlıq, portret, avtoportret, kompozisiya, kolorit, dəzgah.

**Ədəbiyyat:**

1. Əliyev Z. Tofiq Ağababayev. 2011.
2. Əliyeva M. Rəssamın sənət dünyası // "Respublika" qəz. 2008. 7 oktyabr. S. 6.
3. Lalə Azəri. Qocaman fırça ustasının yubiley sərgisi // "Mədəniyyət" qəz. 2014. 21 fevral.- S. 2.
4. <u>Gəncmalıyeva K. Tofiq Ağababayev: sənətin lirikası: // "Kaspi" qəz. 2013. 27 noyabr. S. 12.</u>

**Вафа**
**Оруджева****Автопортреты народного художника Тофика Агабабаева**
**Резюме**

В статье исследуется творчество известного мастера кисти, народного художника Азербайджана Тофика Агабабаева. Анализу подвергаются произведения художника, выполненные в жанре автопортрета. Отмечается, что подобные работы художника, отличающиеся интересным композиционным решением, привлекают внимание выразительным цветовым исполнением.

**Ключевые слова:** живопись, портрет, композиция, колорит, станковый.

**Vafa Orujova**

**Self-portraits of people's artist Tofig Agababayev****Summary**

This article examines the works of famous people's artist of Azerbaijan Tofig Agababayev. The analysis focuses on the artist's works made in the genre of self-portrait. It is noted that such works of the artist have an interesting composition, attracted the attention of expressive color performance.

**Keywords:** painting, portrait, composition, color, easel.

**Məqalənin redaksiyaya daxil olma tarixi:**
**18.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə**
**tarixi: 23.10.2017Məqalənin çapa qəbul olunma**
**tarixi: 17.11.2017**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Arif ƏzizovADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**